

NƏ QƏDƏR Kİ MÜSTƏQİL AZƏRBAYCAN DÖVLƏTİ VAR, AZƏRBAYCAN XALQI VAR, HEYDƏR ƏLİYEV ÜRƏKLƏRDƏ YAŞAYACAQDIR!

VAHİD AZƏRBAYCAN UĞRUNDA!

# iki sahil

www.ikisahil.az / www.ikisahil.tv

GÜNDƏLİK İCTİMAİ-SİYASİ QƏZET

№ 176 (7431) / Cümə axşamı, 26 sentyabr 2019-cu il


# Prezident İlham Əliyev: Vətəndaşların rahatlığı hər şeydən üstündür



**Bakı Nəqliyyat Agentliyinin "Koroğlu" Nəqliyyat Mübadilə Mərkəzinin açılışı olub**

Bax: Səh.2

Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılışda iştirak ediblər

Bax: səh. 3



## SOCAR Türkiyədə STAR zavodunun anbar tutumunu artırır



## İki cahana sığmayıb, qəlblərdə əbədi yaşayan şair

*YAP Yasamal rayon təşkilatında İmadəddin Nəsiminin 650 illik yubileyi çərçivəsində tədbir keçirildi*



Bax: səh. 6

Bax: səh. 5



*Siyavuş Novruzov:*

**Sosial şəbəkələr vasitəsilə cəmiyyətdə qarışıqlıq yaratmaq istəyənlərin arxasında xarici dairələr dayanır**

Bax: səh. 5



*Con Batçelor:*

**Azərbaycandakı dinlərarası harmoniya, multikultural mühit barədə kifayət qədər məlumatlıyam**

Bax: səh. 10



*Əli Həsənov:*

**Yeni Azərbaycan Partiyası xalq partiyasıdır**


5 | 2007-2018-ci illərdə SOCAR Gürcüstan iqtisadiyyatına 1 milyard dollardan çox sərmayə yatırıb

14 | SAĞLAM, KONSTRUKTİV MÜXALİFƏT CƏMİYYƏTİN GÜZGÜSÜDÜR Bu məlum həqiqəti antimilli ünsürlər niyə anlamaq istəmirlər?

16 | Sürətli arıqlamağın zərərləri

*Prezident İlham Əliyev:*

# Vətəndaşların rahatlığı hər şeydən üstündür

## BAKI NƏQLİYYAT AGENTLİYİNİN "KOROĞLU" NƏQLİYYAT MÜBADİLƏ MƏRKƏZİNİN AÇILIŞI OLUB

## Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılışda iştirak ediblər
















**Sentyabrın 25-də Bakı Nəqliyyat Agentliyinin "Koroğlu" Nəqliyyat Mübadilə Mərkəzinin açılışı olub.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılışda iştirak ediblər.

Son illərdə Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda sürətli sosial-iqtisadi inkişafın təmin olunması istiqamətində nəhəng layihələr icra edilir. Bütün bunlar vətəndaşların sosial rifahının yaxşılaşdırılmasına, insanların rahatlığının, təhlükəsizliyinin təmin olunmasına yönəlib. Hazırda ölkədə keyfiyyətli ictimai nəqliyyat xidmətlərinin göstərilməsi ilə bağlı görülən işlər də məhz bu amildən qaynaqlanır.

Prezident İlham Əliyevin tapşırıq və göstərişlərinə əsasən, son illərdə nəqliyyat parkının müasirləşdirilməsi, sərnişinlərin müntəzəm marşrut avtobuslarından təhlükəsiz və rahat istifadəsini təşkil etmək məqsədilə bir sıra layihələr icra olunub. Bu layihələrdən biri də ictimai nəqliyyat sistemində yenilik olan Nəqliyyat Mübadilə mərkəzlərinin - HUB-ların yaradılmasıdır. Bu konsepsiyada əsas məqsəd sərnişinlərin rahat gediş-gəlişinin təmin edilməsi, şəhərdə nəqliyyatın mobilliyinə nail olunması, Bakının mərkəzi hissəsində nəqliyyat sıxlığının aradan qaldırılmasıdır. Bu layihənin icrası vətəndaşların rahatlığı ilə yanaşı, sərnişindaşımada təhlükəsizlik baxımından da mühüm rola malikdir.

Bakı Nəqliyyat Agentliyinin İdarə Heyətinin sədri Vüsal Kərimli "Koroğlu" Nəqliyyat Mübadilə Mərkəzində yaradılan şərait barədə dövlətimizin başçısına və birinci xanıma məlumat verdi.

Qeyd edildi ki, Heydər Əliyev və Ziya Bünyadov prospektlərinin kəsişmə nöqtəsi, Böyükşor qovşağı, eləcə də metronun "Koroğlu" stansiyasının yaxınlığındakı bu Nəqliyyat Mübadilə Mərkəzi ilk HUB olaraq 2016-cı ildə təşkil edilib. Pilot layihə olaraq mərkəz əvvəlcə yüngül konstruksiyalardan hazırlanmışdı. Lakin sonradan əhalidən gələn müraciətlərlə əlaqədar "Koroğlu" HUB 2019-cu ildə əsaslı şəkildə yenidən qurulub və burada müasir nəqliyyat infrastrukturu yaradılıb.

Dövlətimizin başçısının tapşırığına əsasən, Agentlik tərəfindən Bakı şəhərinin əsas giriş-çıxış ərazilərində 5 böyük HUB təşkil edilib, şəhər və qəsəbələrdə isə 6 kiçik HUB-ın yaradılması planlaşdırılır. Bütün mərkəzlərdə buradakı kimi ən yüksək şərait yaradılacaq.

Prezident İlham ƏLİYEV: Əlbəttə, biz bu sahəyə böyük diqqət göstəririk. Çünki vətəndaşların rahatlığı hər şeydən üstündür. Ona görə ən müasir avtobuslar alınır, nəqliyyatla və təhlükəsizliklə bağlı çox ciddi tədbirlər görülür. Bu işləri davam etdirin. Şəhərimizin hər bir yerində ən yüksək səviyyəli nəqliyyat şəraiti yaradılmalıdır.

* * *

Məlumat verildi ki, paytaxtın yollarında yeni səkilər salınıb, görmə əngəlli vətəndaşlar üçün şərait yaradılıb. Hökumət evinin arxasında pilot layihə kimi velosiped yolunun salınması nəzərdə tutulur. Yolun 100 metrlik hissəsi artıq hazırdır. İndi velosiped yolunun örtüyü ilə bağlı təcrübələr aparılır. Bu yolun salınmasında əsasən yerli materiallardan istifadə edilir. Bakı şəhərində ümumilikdə 18,5 kilometrlik, ilk mərhələdə isə 7,5 kilometrlik velosiped yolunun salınması nəzərdə tutulur.

Diqqətə çatdırıldı ki, şəhərdə parklanma ilə əlaqədar ilkin mərhələdə 600-dək yer müəyyənləşdirilib. İndi bu istiqamətdə infrastruktur işləri görülür.

Sonra dövlətimizin başçısı və birinci xanım platformalarda və gözləmə zallarında yaradılan şəraitlə maraqlandılar.

Bildirildi ki, burada dörd platformadan ibarət avtobus terminalı inşa edilib. Platformalarda müasir informasiya texnologiyaları avadanlığı, havalandırma sistemi ilə təchiz edilmiş 10 gözləmə zalı var. Gözləmə zalları Azərbaycanın elm, ədəbiyyat, mədəniyyət, incəsənət, tarix, idman sahələrində əldə etdiyi uğurları, zəngin dəyərləri əks etdirən yazılı və qrafik məlumatlar əsasında tərtib edilib. Hər bir zalda maarifləndirici məlumatlarla yanaşı, kitab rəfləri də quraşdırılıb. Gözləmə zalları ilə yanaşı, mərkəzdə 5 köşk, 1 idarəetmə otağı, tibb məntəqəsi, ana və uşaq otağı inşa edilib. Zallar içməli su ilə də təmin olunub.

Ətraf kənd və qəsəbələri şəhər mərkəzi ilə birləşdirən 30 müntəzəm marşrut xətti üzrə 430-a yaxın avtobusun fəaliyyət göstərdiyi mərkəzin xidmətlərindən gün ərzində 270 min nəfərə yaxın sərnişin istifadə edəcək. Ümumilikdə isə gün ərzində Bakı şəhərində 2,2 milyon sərnişin daşınır. Burada hər bir marşrut xətti üzrə avtobuslar üçün dayanacaq yeri müəyyən edilib, məlumatlandırıcı lövhələr yerləşdirilib.

Paytaxtın avtobus parkının yenilənməsi məqsədilə Prezident İlham Əliyevin müvafiq Sərəncamına əsasən 300 yeni avtobus sifariş olunub. Avtobuslardan 168-i artıq BNA-ya təhvil verilib. Oktyabrın sonunda avtobusların sayı 200-ə çatdırılacaq. Ümumilikdə bütün avtobusların ilin yekununda təhvil verilməsi planlaşdırılır.

Prezident İlham Əliyev burada yaradılmış şəraiti yüksək qiymətləndirdi.

Mərkəzin əsas özəlliklərindən biri də ərazidəki istirahət parkıdır. Parkda qurulan ən müasir işıqlandırma sistemi gecələr buraya xüsusi gözəllik bəxş edir.

⇨ Davamı 3-cü səhifədə

*Prezident İlham Əliyev:*

# Vətəndaşların rahatlığı hər şeydən üstündür

## BAKI NƏQLİYYAT AGENTLİYİNİN "KOROĞLU" NƏQLİYYAT MÜBADİLƏ MƏRKƏZİNİN AÇILIŞI OLUB

**Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılışda iştirak ediblər**

⇨ Əvvəli 2-ci səhifədə

Prezident İlham ƏLİYEV: Biz bu parkı mənim təşəbbüsümlə bir neçə il bundan əvvəl yaratmışıq. İndi bura gözəl bir istirahət zonasıdır. Bu da parka bitişik olan bir yerdir. Burada gözəl şərait var. Biz böyük bir ərazini ictimai yerə çevirdik. Çünki bəzi fikirlər var idi ki, burada tikinti aparılsın, binalar tikilsin. Mən icazə vermədim, dedim ki, bura vətəndaşların rahatlığı üçün ictimai zona olmalıdır. İndi bura böyük ərazidir. Şəhərin mərkəzində yeni gözəl istirahət və nəqliyyat mərkəzi yaradılıb.






* * *

Sonra dövlətimizin başçısı və birinci xanım Türkiyənin BMC şirkətinin istehsalı olan avtobusa baxdılar.

Məlumat verildi ki, sərnişindaşıma tələblərinə tam cavab verən bu avtobuslar rahatlığı ilə fərqlənir. Avtobusların ən üstün cəhəti onun sıxılmış təbii qaz mühərrikli olmasıdır. "BakuBus" MMC üçün əvvəllər sifariş edilən avtobuslar 300 kilometr məsafə qət edə bilirdisə, sıxılmış təbii qaz mühərrikli avtobuslarda bu məsafəni 600 kilometrədək artırmaq mümkün olub. Bu avtobusların salonu və mühərrik sistemi tamamilə dəyişdirilir. İyirmi altı oturacaq yeri olan avtobusların ümumi sərnişin tutumu yüz nəfərlikdir.

Prezident İlham Əliyev əlavə müasir avtobusların alınması ilə bağlı tapşırıqlarını verdi.

* * *

Qeyd edək ki, "Koroğlu" Nəqliyyat Mübadilə Mərkəzi istər yol hərəkətinin təşkili, istərsə də sərnişindaşıma sahəsinə müsbət töhfə verəcək. Bu mərkəz şəhərdaxili və şəhərlərarası avtobuslar, metro və dəmir yolu nəqliyyatı kimi ictimai nəqliyyat növlərini birləşdirən və onların arasında daşımaları asanlaşdıran nəqliyyat infrastrukturudur. HUB konsepsiyası əsasən şəhərətrafı ərazilərdən şəhər mərkəzinə gələn avtobusların hərəkətinin mərkəzləşdirilmiş şəkildə təşkili, həmçinin sərnişindaşımada səmərəli idarəetmənin və nəzarət mexanizminin gücləndirilməsində mühüm rol oynayır.

Son illərdə dövlətimizin başçısının sərəncamlarına, tapşırıq və göstərişlərinə uyğun olaraq, Bakının qəsəbə və kəndlərində müasir yollar salınır, orada yaşayanların sosial məsələlərinin həlli üçün konkret addımlar atılır. Bu mərkəzin yaradılması da bu istiqamətdə atılan addımların ardıcıl xarakter aldığını göstərir. Belə ki, bu infrastruktur Bakının qəsəbələrində yaşayanların şəhər mərkəzinə, həmçinin əks istiqamətə rahat və təhlükəsiz hərəkətini təmin etməklə, ümumilikdə, paytaxtda sərnişindaşıma xidmətinin müasirləşdirilməsinə töhfə verəcək.

# SOCAR Türkiyədə STAR zavodunun anbar tutumunu artırır




### ÜMUMİ TUTUM 2,5 MİLYON KUBMETRƏ ÇATDIRILACAQ

"SOCAR Türkiyə"nin Əliağadakı Xüsusi Sənaye Zonası statuslu ərazisində bir obyektin açılışı, digərinin isə təməlqoyma mərasimi keçirildi. STAR neft emalı zavodunun xammal və hazır məhsul saxlama potensialını artıracaq obyektlərdən biri istifadəyə verildi, ikincisinin təməli qoyuldu. "SOCAR Türkiyə"nin törəməsi olan və ildə 10 milyon ton xam neft emal gücünə malik STAR zavodunun saxlama tutumunun artırılması məqsədi ilə yeni investisiya layihələri həyata keçirilir. Bunlardan "SOCAR Depolama" terminalında çənlərin genişləndirilməsi layihəsi başa çatdırılaraq istifadəyə verilmiş, STAR neft emalı zavodunun xam neft və ara məhsul çənlərinin potensialını artıracaq layihəyə isə start verilmişdir. Bu münasibətlə keçirilmiş mərasimdə SOCAR-ın prezidenti Rövnəq Abdullayev, "SOCAR Türkiyə" İdarə Heyətinin sədri Vaqif Əliyev, "SOCAR Türkiyə"nin baş icraçı direktoru Zaur Qəhrəmanov, STAR neft emalı zavodunun və layihədə iştirak edən podratçı şirkətlərin rəhbərləri iştirak etmişlər. Yeni investisiyalar "SOCAR Türkiyə"nin müştərilərinin istifadə edəcəyi anbarların tutumunu 2,5 milyon kubmetrə çatdırmağa imkan verəcək.

Mərasimdə çıxış edən SOCAR prezidenti Rövnəq Abdullayev neft-qaz, emal və neft-kimya sektorlarında investisiyalarını davam etdirdiyini bildirdi: "Ötən ilin oktyabr ayında burada STAR neft emalı zavodunun açılış mərasimini keçirdik. Hələ bir il keçmədən yeni layihələrimiz üçün yenidən Əliağaya toplaşmışıq. Bu bizə qürur verir. Fəaliyyətlərimizin mühüm bir hissəsini təşkil edən neft-kimya investisiyalarımız Azərbaycan iqtisadiyyatı üçün əlavə dəyər yaradaraq uzunmüddətli dayanıqlı gəlir mənbəyi təmin edir, eyni zamanda həm bölgəyə, həm də Türkiyəyə böyük mənfəət gətirir". Son 10 il ərzində "Petkim"in ümumi gəlirləri 47,2 milyard lirə təşkil etmiş, xalis mənfəəti isə 4 milyard lirəni ötmüşdür. STAR neft emalı zavodunda artıq 4 milyon ton xam neft emal olunmuşdur. Cari ilin sonuna qədər bu rəqəm 8 milyon tona çatacaq. SOCAR-ın prezidenti saxlama obyektlərinin tutumunun artırılmasının STAR zavodunun məhsuldarlığına, emal təhlükəsizliyinə və istehsal olunacaq məhsulların bazarda ən optimal kommersiya şərtləri ilə reallaşdırılmasına mühüm töhfə verəcəyini qeyd etdi. R.Abdullayev çıxışını belə tamamladı: "Azərbaycan və Türkiyə arasında əsrlərdir davam edən dostluq əlaqələri iki ölkənin prezidentlərinin iradəsi və böyük dəstəyi ilə iqtisadi baxımdan da böyük mərhələ qət edib. Gələcəkdə iki ölkənin birliyini daha da gücləndirmək naminə iqtisadi əlaqələrimizi daha da inkişaf etdirmək niyyətindəyik."




### TÜRKİYƏNİN 5 BÖYÜK SAXLAMA TERMİNALINDAN BİRİ

Təntənəli mərasim ilə açılışı keçirilən "SOCAR Depolama" terminalında çənlərin genişləndirilməsi layihəsi ümumilikdə 335 000 kubmetr tutuma malik 12 çəni əhatə edir. Yeni layihənin həyata keçirilməsi ilə hazırda Egey bölgəsinin ən böyük saxlama terminalı olan bu obyekt Türkiyənin 5 böyük terminalından birinə çevriləcək. Tikintisi 2017-ci ilin sentyabrında başlamış obyekt dizel, benzin, təyyarə yanacağı və reformat məhsullarının saxlanılması üçün nəzərdə tutulub.

Hazırda təməli qoyulan "STAR neft emalı zavodunun xam neft və ara məhsul çənləri" layihəsi isə emal zavodunun anbar tutumunu artırmaqla yanaşı əməliyyat çevikliyini də təmin edəcəkdir. Əlavə 342 000 kubmetr saxlama imkanı yaradan bu növbəti layihənin 2021-ci ilə tamamlanması nəzərdə tutulur.

Dəyişməz sərvət:

# İntellektual potensial, bilik, savad, səriştə, təcrübə

*Dövlətimizin başçısı İlham Əliyev "Əsrin müqaviləsi"nin 25 illiyi və Neftçilər Günü münasibətilə keçirilən mərasimdə bir daha bildirmişdir ki, iqtisadiyyatın elmi əsaslar üzərində qurulması davamlı inkişaf üçün əsasdır*

**Zəngin təbii resurslara və əlverişli coğrafi məkana malik olan Azərbaycanın iqtisadi sahədə əməkdaşlığına geniş imkan yaradan amillərdən biri təbii ki, elmi, intellektual potensialıdır. Ulu öndər Heydər Əliyevin siyasi kursunu bütün istiqamətlərdə uğurla davam etdirən Prezident İlham Əliyev bugünkü uğurlarımızda elmin rolunu xüsusi vurğulayaraq bildirmişdir ki, tarixi ənənələrlə müasirliyin ahəngdar vəhdətində davamlı yeniləşən ölkəmizdə elmin prioritetləri dünya elminin hazırkı inkişaf tendensiyalarına uyğun olub, milli strateji maraqların konseptual şəkildə həllinə yönəlmişdir.**



Qloballaşmanın böyük vüsət aldığı müasir dövrdə elmin əhəmiyyətinin gündən-günə artması və yüksək texnologiya sahələrinin sürətlə genişlənməsi çevik innovasiya fəallığı və yeni yanaşmalar tələb edir. Bir sözlə, mövcud şərait düşünən və araşdıran gəncliyin intellektual potensialının tam üzə çıxarılması üçün əlverişli zəmin hazırlanmasını ön plana çıxarır. Bir sözlə, inkişafın kadr siyasəti ilə tamamlanması yeni-yeni hədəflərə yol açır. Dövlətimizin başçısı İlham Əliyev "Əsrin müqaviləsi"nin 25 illiyi və Neftçilər Günü münasibətilə keçirilən təntənəli mərasimdə də bu məsələyə xüsusi diqqət yönəltmişdir: "Əsrin kontraktı"nın ölkəmiz üçün, xalqımız üçün çoxşaxəli faydası var. Ancaq onlardan biri də kadr hazırlığıdır. Xatırlayıram, 1994-cü ildə kontraktın üzərində iş aparılarkən xüsusi qeyd edirdik ki, biz istəyirik kontraktda Azərbaycan vətəndaşlarının işə cəlb olunması məsələsi göstərilsin. Biz istəyirdik ki, bu, bir öhdəlik kimi konsorsiumun şirkətləri üzərinə qoyulsun ki, Azərbaycan mütəxəssisləri tədricən bütün əsas vəzifələrdə işləsinlər və belə də oldu. Əlbəttə ki, birinci illərdə xarici mütəxəssislər çoxluq təşkil edirdi. Ancaq xarici şirkətlər və Azərbaycan tərəfindən aparılmış təlim kursları çox güclü kadr potensialı yaratdı. Mənə verilən məlumata görə, bu gün bu təlimlərdən keçmiş mütəxəssislər BP şirkətinin nəinki Azərbaycanda, bir çox ölkələrdə önəmli layihələrində iştirak edirlər, önəmli vəzifələrdə çalışırlar. Bu gün "Azəri-Çıraq-Günəşli" neft yatağının işlənilməsində çalışanların 90 faizdən çoxu Azərbaycan vətəndaşlarıdır, yəni bunu biz təmin etdik. Bu, çox böyük sərvətdir. Neft, qaz tükənən sərvətlərdir. İntellektual potensial, bilik, savad, səriştə, təcrübə isə dəyişməz sərvətdir. Bu təlimlərdən keçmiş Azərbaycan vətəndaşları, mütəxəssisləri bu gün çox böyük işlər görürlər, ölkəmizin inkişafına böyük töhfə verirlər."

Son 16 ildə ölkə Prezidenti İlham Əliyevin təhsilin, elmin və yeni texnologiyaların vəhdətinin yaradılması istiqamətində atdığı addımlar davamlılığı ilə diqqət çəkir. Məqsəd təhsilin inkişafını dünya standartlarına uyğunlaşdırmaq, elmi araşdırmaların miqyasını genişləndirmək, yeni texnologiyaların tətbiqinə səy göstərmək, ən əsası iqtisadiyyatın və elmin zəncirvari bağlılığı şəraitində dayanıqlı inkişafa nail olmaqdır. Son illərdə atılan addımlara diqqət yetirsək, məktəb tikintisinin və yenidən bərpasının geniş miqyas alması ilə yanaşı, onların maddi-texniki bazasının möhkəmləndirilməsi, "hər şagirdə bir kompyuter" prinsipinə uyğun olaraq yeni texnologiyaların tətbiqinə geniş yer verilməsi diqqətdən kənarda qalmır. Cari ildə Azərbaycanın ev sahibliyi etdiyi tədbirlər sırasında xüsusi yer tutan XXXI Beynəlxalq İnformatika Olimpiadası da bu kimi məqamlara işıq salmışdır. Ölkəmizin ilk dəfə ev sahibliyi etdiyi bu tədbir istər yeni texnologiyaların inkişafı, istərsə də gənclərimizin təhsili, elmin nailiyyətlərinə dərindən yiyələnmələri, bacarıqlarını ortaya qoymaları üçün mövcud imkanların təqdimatında əhəmiyyətli rol oynadı.

Qeyd edək ki, 1989-cu ildən keçirilən və informatika sahəsində ən nüfuzlu yarışlardan biri hesab olunan Beynəlxalq İnformatika Olimpiadası hər il dünyanın bir çox ölkəsindən olan məktəblilərə bilik və bacarıqlarını sübut etmək imkanı yaradır. Azərbaycanda ilk dəfə keçirilən Beynəlxalq İnformatika Olimpiadasında iştirak etmək üçün Azərbaycan komandası da daxil olmaqla, 88 ölkə və regiondan 600-dən çox şagird, müəllim və ekspertdən ibarət rəsmi nümayəndə heyəti qatılmışdır. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva tədbir iştirakçılarına təbrikində bu əminliyi ifadə etmişdir ki, olimpiada informatika sahəsində yeni istedadların üzə çıxarılması, gənclərin informatikaya marağının daha da gücləndirilməsi və təmsilçi ölkələrin sıralarının genişlənməsi işinə öz töhfəsini verəcək. Biliklərə əsaslanan cəmiyyətin formalaşdığı və rəqəmsal bacarıqların son dərəcə zəruri olduğu indiki dövrdə informasiya-kommunikasiya texnologiyaları elmi potensialın vacib göstəricilərindən birinə çevrilib. İnformatika iqtisadiyyatda, elmdə və cəmiyyət həyatında böyük əhəmiyyətə malikdir. Dünya informasiya şəbəkəsinin yaradılması isə kompyuter biliklərinin rolunu xeyli artırmışdır.

Dövlətimizin başçısı İlham Əliyev daim çıxışlarında gənclərə bu çağırışları edir ki, əgər biz inkişaf etmiş ölkələrin tarixinə və bugünkü inkişaf dinamikasına nəzər salsaq görərik ki, əsas hərəkətverici qüvvə təhsildir, elmdir, texnologiyalardır, innovasiyalardır. Təbii resurslar yox, məhz biliklər. Ona görə biz də çalışırıq və bundan sonra da çalışmalıyıq ki, Azərbaycanda təhsilin səviyyəsi daha da yüksəlsin. Təhsilin səviyyəsi dünyanın ən yüksək standartlarına cavab verməlidir.

Qeyd edək ki, ölkəmizdə savadlılığın səviyyəsi təxminən 100 faizə yaxındır. Ölkə Prezidenti bildirir: "Təhsillə bağlı olan islahatlar, yeniliklər əlbəttə ki, öz nəticəsini verəcək və verir. Buna müəyyən vaxt, zaman lazımdır. Ancaq biz düzgün yoldayıq və əminəm ki, ölkəmizin uğurlu inkişafını güclü kadr potensialı təmin edəcək. Əsas məqsəd bundan ibarətdir."

Əvvəldə də qeyd etdiyimiz kimi, gənclərə diqqət və qayğı, onların elmin sirlərinə dərindən yiyələnmələri üçün səylər müstəqil Azərbaycan dövlətinin qurucusu, ulu öndər Heydər Əliyevin hakimiyyətinin hər iki dövründə öndə olub. Azərbaycanın müstəqilliyini düşünən Ümummilli Lider hələ hakimiyyətinin birinci dövründə gəncləri keçmiş İttifaqın ən nüfuzlu ali məktəblərində təhsil almağa göndərirdi. 1993-cü ildə ulu öndər Heydər Əliyev xalqın təkidli tələbi ilə hakimiyyətə qayıtdıqdan sonra isə gənclərin idarəçilikdə irəli çəkilməsi istiqamətində mühüm addımlar atıldı. Son 16 ildə Heydər Əliyev siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi digər istiqamətlər kimi, bu sahədə də özünü qabarıq şəkildə büruzə verir. Təkcə ötən il və cari ilin arxada qalan dövründə imzalanan Fərman və sərəncamlara diqqət yetirməklə təhsilin, elmin inkişafının prioritetliyini daha aydın görə bilərik. Dövlətimizin başçısı İlham Əliyevin 16 noyabr 2018-ci il tarixli "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı"nın, həmçinin 23 noyabr 2018-ci il tarixli "Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019-2025-ci illər üçün Strategiya"nın təsdiqlənməsi haqqında sərəncamları uğurlu iqtisadi tərəqqinin kadr hazırlığının beynəlxalq standartlar səviyyəsinə uyğunlaşdırılmasından asılı olduğunu bir daha təsdiqlədi. "Ali təhsil müəssisələrində təqaüd sisteminin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər barədə", "Doktorantura, ali təhsil, orta ixtisas və peşə təhsili müəssisələrində, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində təhsil alan tələbələrə təqaüdlərin verilməsi haqqında" sərəncamlar, "Azərbaycan Respublikasının ali məktəb tələbələri üçün Prezident təqaüdünün təsis edilməsi haqqında" Fərman da bu silsilədəndir. Ali təhsil sisteminin rəqabətqabiliyyətliliyinin artırılması öz növbəsində beynəlxalq əlaqələrin inkişafını, dünya təhsil sisteminə inteqrasiyanın sürətləndirilməsini bir tələb kimi ortaya qoyur. Təcrübə mübadiləsinin genişləndirilməsinin qarşıya qoyulan məqsədlərə lazımi səviyyədə nail olmağa böyük stimul verdiyi əldə olunan nəticələrdən də aydın görünür. Ölkə Prezidenti İlham Əliyevin təsdiq etdiyi gənclərin xarici ölkələrdə təhsili ilə bağlı Dövlət Proqramının uğurlu icrası da bu kimi məqsədlərə xidmət etdi. Artıq bu Proqramın icrası müddətində 5 min tələbənin xarici ölkələrdə təhsili təmin edilmişdir. Prezident kimi fəaliyyətə başladığı gündən "Neft kapitalını insan kapitalına çevirək" tezisini irəli sürən və bu istiqamətdə mühüm addımlar atan dövlətimizin başçısı İlham Əliyev hər zaman bildirir ki, hər bir ölkənin inkişafında təhsil, bilik, yeni texnologiyalar əsas yer tutur. İnformasiya-kommunikasiya texnologiyalarının tətbiqinin səviyyəsi hər bir ölkənin intellektual və elmi potensialının, dövlət idarəçiliyində şəffaflığın, demokratiyanın inkişafının əsas göstəricilərindəndir. Məhz İKT sektorunda əldə olunan uğurlara söykənərək, bu fikri böyük əminliklə qeyd edirik ki, Azərbaycan bu gün dünyada təkcə neft-qaz ehtiyatlarına malik ölkə deyil, həmçinin yüksək səviyyəli elmi potensiala malik və informasiya-kommunikasiya texnologiyalarının tətbiq olunduğu innovasiyalar ölkəsi kimi tanınır. "Bu gün yeni texnologiyalar əsridir. O ölkələr ki, bu texnologiyaların sahibidir, əlbəttə, onlar dünya miqyasında öz maraqlarını daha böyük dərəcədə müdafiə edə bilirlər. Azərbaycan da o ölkələrin sırasında olmalıdır" çağırışını edən dövlətimizin başçısı İlham Əliyev bildirir ki, Avropaya inteqrasiya siyasətini həyata keçirən Azərbaycan dövləti dünyanın qabaqcıl ölkələrinin təcrübəsinin öyrənilməsinə və tətbiqinə daim maraq göstərir.

Cari ilin oktyarbrın 10-12 tarixlərində keçirilməsi nəzərdə tutulan Təhsil sərgisi də bu kimi məqsədlərə xidmət edir. Hər bir tədbir təbii ki, özəlliyi ilə diqqət çəkir. Onların əhəmiyyətindən bəhs edərkən əhatə etdikləri sahəyə uyğun olaraq hansı uğurlara imza atılacağı geniş təhlil edilir. Bu baxımdan Təhsil sərgisi Azərbaycanda təhsil xidmətlərinin təşviqi üçün ən səmərəli vasitələrdən biridir. Məlumat üçün bildirilir ki, sərgi həm yerli, həm də xarici ali təhsil müəssisələrinə əsas hədəf auditoriyası-şagirdlər və onların valideynləri ilə görüşlərin keçirilməsi, eləcə də işgüzar əlaqələrin qurulması və möhkəmləndirilməsi üçün imkan yaradan unikal platformadır. Xarici iştirakçıların sırasında Almaniya, Belarus Respublikası, Çex Respublikası, İran, İsveç, Qazaxıstan, Latviya, Litva, Macarıstan, Niderland Krallığı, Özbəkistan, Polşa, Rumıniya, Rusiya, Türkiyə və Yunanıstanın nümayəndələri yer alır. O da bildirilir ki, Təhsil Nazirliyinin innovativ stendində sərgidə ən son təhsil metodikası barədə, eləcə də uşaqların inkişafı mərkəzinin mütəxəssislərindən uşaqların təhsili haqqında məlumat əldə etmək mümkündür. Sərgidə, həmçinin Avropa Birliyinin stendində müxtəlif Avropa ölkələrinin təhsil müəssisələri, dil kursları, tələbə mübadiləsi proqramları təqdim olunacaq. Ümumiləşdirilmiş şəkildə qeyd etsək, sərgi təhsil sahəsində ən son nailiyyətləri, innovasiyaları, təhsil prosesində yeni texnologiyaların tətbiq mexanizmlərini nümayiş etdirmək üçün interaktiv platformadır.

Göründüyü kimi, dünya təhsil sisteminə inteqrasiya, təcrübə mübadiləsinin genişləndirilməsi, istər Azərbaycan tələbələrinin bu və ya digər ölkələrdə, istərsə də xarici tələbələrin Azərbaycanda təhsilinə geniş imkanların yaradılması fonunda ölkələr arasında ikitərəfli əməkdaşlığa böyük töhfələr verilir. Bu kimi addımlar təhsilin inkişafına geniş imkanlar yaratmaqla yanaşı, eyni zamanda, hər bir ölkənin, o cümlədən Azərbaycanın həqiqətlərinin təbliğində də əhəmiyyətli rol oynayır. Xaricdə təhsil alan hər bir gənc ölkəsinin təbliğatçısıdır.

Azərbaycan sürətlə inkişaf edir. Malik olduğu təbii resurslardan səmərəli istifadəyə, həmçinin ölkəmizin davamlı inkişafına xidmət edən yeni-yeni enerji layihələrinin gündəmə gətirilməsi və uğurlu icrası kadr hazırlığını daha da aktuallaşdırır.

Neft strategiyasının uğurlu icrasına davamlı töhfələr verən SOCAR-da gənclər siyasətinə uyğun olaraq gənc mütəxəssislərin hazırlanması, yerləşdirilməsi, karyera yüksəlişi məsələləri daim diqqət mərkəzindədir. Gənclərlə görüşlərin birində SOCAR-ın birinci vitse-prezidenti, akademik X.Yusifzadənin onlara ünvanladığı bu tövsiyəni xatırlamaq istərdik: "Daim üzləşdiyim bu sualı bir daha sizlərin qarşısında təkrar etmək istəyirəm. Mənə sual olunanda ki, sizin bu uğurlarınızın əsasında nə dayanır, buna cavabım birmənalı və dəyişməz olur - zəhmət, yenə də zəhmət. Nə qədər zəhmət çəksəniz, onun müsbət nəticəsini görərsiniz. Öyrənmək, biliklərə yiyələnmək heç zaman gec deyil. Bu günün gəncləri müasir düşüncəyə, geniş dünyagörüşə malikdir. Sizlər yaşlı nəslin nümayəndələrindən milli-mənəvi dəyərlərimizə, mədəniyyətimizə, tariximizə bağlılığı öyrənməklə öz biliklərinizi daha da təkmilləşdirməklə irəliyə doğru addımlamalısınız. Görülən işlər, əldə olunan uğurlar daha yeni-yeni vəzifələrin müəyyənləşdirilməsində əsasdır ki, onların icrası da siz gənclərdən asılıdır."

Gənclərimizə ünvanlanan bu kimi çağırışlara, həmçinin onların öz potensial imkanlarını ortaya qoymaq, təhsilin, elmin dərinliklərinə dərindən yiyələnmək üçün yaradılan şəraitə söykənərək belə bir ümumiləşdirməni apara bilərik ki, sürətli tərəqqi yolunda olan ölkəmizdə təhsil sisteminin insan kapitalının inkişafı çağırışlarına cavab verməsi yönündə yeni hədəflərin müəyyənləşdirilməsi və təhsilin keyfiyyət göstəricilərinin Avropa standartlarına uyğunlaşdırılması gənclərin dünya təhsil sisteminə inteqrasiyasını sürətləndirir.

**Yeganə Əliyeva, "İki sahil"**

*Siyavuş Novruzov:*

# Sosial şəbəkələr vasitəsilə cəmiyyətdə qarışıqlıq yaratmaq istəyənlərin arxasında xarici dairələr dayanır



"Sosial şəbəkələrin imkanlarından düzgün olmayan şəkildə istifadə edilir. Bu imkanlardan istifadə olunaraq cəmiyyətdə qarışıqlıq yaratmaq istəyənlər var. Onların arxasında bəzi xarici dairələr dayanır. Həmin insanları maliyyələşdirənlər sırasında erməni lobbisi xüsusi yer tutur". Bu fikirləri YAP İcra katibinin müavini, Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov deyib.

S.Novruzov bildirib ki, xaricdəki mühacir azərbaycanlıların bəziləri Azərbaycanda aparılan işlərə - islahatlara, abadlıq-quruculuq işlərinə kölgə salmağa cəhd edirlər: "Onlar yalan məlumatlar yaymaqla məşğuldurlar. Belə olan halda YAP üzvləri daha aktiv olmalıdırlar. Göstərsinlər ki, hansı Avropa ölkəsində son 20 ildə Azərbaycandakı qədər işlər görülüb. Başqa ölkələrin 100 ildə keçə bilmədiyi yolu Azərbaycan qısa müddətdə keçdi. Əgər bir ölkədə ictimai-siyasi sabitlik yoxdursa, orada inkişafdan söhbət gedə bilməz. Azərbaycan sabitlik adasıdır".

S.Novruzov qeyd edib ki, YAP-ın rayon təşkilatları insanlar arasında təbliğat-təşviqat işini gücləndirməlidirlər: "Ölkəmizdə həyata keçirilən dövlət siyasətinin uğurları insanlara geniş şəkildə çatdırılmalıdır. Çünki müəyyən dairələr yalan məlumat yaymaqla ictimai rəyi çaşdırmağa çalışırlar. Hesab edirəm ki, bu dairələr xalqı adada bilməz. Amma bütün hallarda biz arxayınlaşmamalı, öz işimizi fəal şəkildə davam etdirməli, doğru yolla inamla getməliyik".

# 2007-2018-ci illərdə SOCAR Gürcüstan iqtisadiyyatına 1 milyard dollardan çox sərmayə yatırıb

2007-2018-ci illər ərzində SOCAR və ona tabe qurumlar tərəfindən Gürcüstan iqtisadiyyatına 1 milyard ABŞ dollarından çox sərmayə yatırılıb.

AZƏRTAC xəbər verir ki, bu barədə SOCAR-ın "Davamlı inkişaf üzrə illik hesabat"ında deyilir.

Bildirilir ki, SOCAR-ın Gürcüstanda fəaliyyəti "SOCAR Georgia Petroleum", "SOCAR Gas Export-Import", "SOCAR Georgia Gas", "SOCAR Georgia Gas Distribution", "Black Sea Terminal" və digər şirkətlər vasitəsilə həyata keçirilir. "SOCAR Georgia Petroleum" MMC Gürcüstan bazarında Azərbaycanın və üçüncü tərəflərin neft məhsullarının topdan və pərakəndə satışını təşkil edir. "SOCAR Georgia Gas"ın əsas fəaliyyəti Gürcüstan ərazisinin qazlaşdırılması proqramının icrasını təmin etməkdir. "SOCAR Georgia Gas" MMC Gürcüstanın regionlarına təbii qaz tədarükü və paylanmasını həyata keçirir və 670 mindən çox abonentə xidmət göstərməklə yerli qaz şəbəkəsini idarə edir.




"SOCAR Gas Export-Import"un əsas fəaliyyəti isə Gürcüstanın bütün sosial sektorunda fasiləsiz qaz təchizatı üçün zəruri olan həcmdə təbii qazın iki qrup istehlakçıya: əhali və enerji istehsalı obyektlərinə çatdırılmasına yönəldilib. 2017-ci ildə SOCAR Gürcüstana 1 milyard 379,7 milyon kubmetr qaz ixrac edib. Ötən ildə bu rəqəm 1 milyard 399,7 milyon kubmetr (1,4 faiz artım) təşkil edib.

*Con Batçelor:*

# Azərbaycandakı dinlərarası harmoniya, multikultural mühit barədə kifayət qədər məlumatlıyam



Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı sentyabrın 25-də ABŞ-ın məşhur "John Batchelor Show" proqramının rəhbəri Con Batçelor ilə görüşüb.

DQİDK-dan AZƏRTAC-a verilən məlumata görə, Komitə sədri xarici jurnalistin Azərbaycanın milli və dini tolerantlığın yüksək inkişaf mərhələsinə çatmasının səbəbləri, tolerantlığın təbliği və təşviqi yönündə görülən işlər, xalqımızın nümunəvi birgəyaşayış modeli, DQİDK-nin fəaliyyət istiqamətləri, eləcə də bu il iyulun 16-18-də Vaşinqton şəhərində keçirilmiş Din Azadlığının İrəliləldilməsi üzrə 2-ci Nazirlər Konfransının mahiyyəti barədə suallarını cavablandırıb.

Komitə sədri bildirib ki, Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilən din siyasəti dini etiqad azadlığının qorunmasına, ölkədəki bütün dini icmalara bərabər imkanların yaradılmasına və ölkəmizdə əsrlərboyu formalaşmış tolerantlıq ənənələrinin daha da möhkəmlənməsinə yönəlib.

Azərbaycan əhalisinin böyük hissəsinin İslam dininə mənsub olduğunu qeyd edən Komitə sədri ölkəmizdə müxtəlif dini konfessiyaların əsrlərdir sərbəst və qarşılıqlı anlaşma şəraitində fəaliyyət göstərdiklərini deyib. Respublikada dövlət qeydiyyatına alınan icmalardan 35-nin qeyri-İslam təmayüllü olduğunu diqqətə çatdıran DQİDK sədri bildirib ki, ölkəmizdə dini konfessiya nümayəndələrinin hər biri öz maddi və mənəvi mədəniyyətini, dilini, tarixi yaddaşını, mentalitetini qoruyub-saxlamaq imkanına malikdir. Mübariz Qurbanlı, eyni zamanda, Azərbaycanda Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin fəaliyyət göstərdiyini, dünyanın 20-dən çox universitetində Azərbaycan multikulturalizm modelinin bir fənn kimi tədris edildiyini, eyni zamanda, bu istiqamətdə müxtəlif ölkələrdə tədbirlərin keçirildiyini bildirib.

Azərbaycandakı dinlərarası harmoniya, multikultural mühit barədə kifayət qədər məlumatlı olduğunu deyən Con Batçelor bildirib ki, səfərinin əsas məqsədi ölkəmiz haqqında daha geniş məlumat əldə etmək və bu informasiyaları ABŞ-da yaymaqdır.

Qeyd edək ki, "John Batchelor Show" proqramı dünyanın 100-dən artıq ölkəsində ingilisdilli auditoriyalar tərəfindən dinlənilir. Proqramın bir neçə milyonluq daimi dinləyici kütləsi var. Veriliş 200-dən artıq radio tərəfindən təkrar yayımlanır.

Görüşün sonunda qonaqlara DQİDK-nin ölkəmizdəki dini tolerantlıq mühiti və maddi-mədəni irsimizə qarşı törədilən erməni vandalizmi haqqında ingilis dilində nəşr etdirdiyi kitablar təqdim edilib.

## "Görkəmli adamların həyatı" silsiləsindən "Heydər Əliyev" kitabı burma dilində nəşr olunub



Milli Məclisin deputatı, yazıçı-dramaturq Hüseynbala Mirələmovun və Viktor Andriyanovun həmmüəllifləri olduqları "Görkəmli adamların həyatı" silsiləsindən "Heydər Əliyev" kitabı Azərbaycanın Malayziyadakı səfirliyinin təşəbbüsü və dəstəyi ilə burma (Myanma) dilində nəşr olunub.

AZƏRTAC xəbər verir ki, kitabda dünya miqyaslı siyasət və dövlət xadimi, ulu öndər Heydər Əliyevin həyat və fəaliyyəti, dövlətçilik tariximizdə misilsiz xidmətləri geniş şəkildə əks olunub.

Kitab myanmalı müsəlman iş adamı və xeyriyyəçi Ko Ko Latt (ədəbi təxəllüsü Shwe O Latt) tərəfindən tərcümə edilib.

## SOCAR təbii qaz istehsalını artırıb



Ötən il SOCAR-ın təbii qaz hasilatı əvvəlki illə müqayisədə 0,5 milyard kubmetrədək artıb.

AZƏRTAC xəbər verir ki, bu barədə SOCAR-ın "Davamlı inkişaf üzrə illik hesabat"ında deyilir.

Hesabata görə, şirkətin qaz istehsalı 2016-cı ildə 6 milyard 266,8 milyon kubmetr, 2017-ci ildə 6 milyard 89,1 milyon kubmetr, keçən il isə 6 milyard 525,6 milyon kubmetr olub.

## Azərbaycan və Ermənistan artıq "post danışıqlar dövrü"nə qədəm qoyub



**Fərid Şəfiyev,**
*Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin sədri*

Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin sentyabrın 24-də keçirilən görüşü formal xarakter daşıyırdı. Aydındır ki, biz artıq "post danışıqlar dövrü"nə qədəm qoymuşuq. Bu isə Ermənistanın baş naziri Nikol Paşinyanın son bir neçə ayda səsləndirdiyi radikal və populist açıqlamalar fonunda gözlənilən idi.

Sentyabrın 22-də, yeni planlaşdırılan danışıqlar ərəfəsində azərbaycanlı hərbçinin təmas xəttində öldürülməsi belə bir təəssürat yaradır ki, erməni rəhbərliyi bütün gücü ilə genişmiqyaslı hərbi toqquşmanın baş verməsinə can atır. Görünən odur ki, Ermənistanda dərin daxili siyasi böhran - həm Paşinyan partiyasının əvvəlki ölkə rəhbərliyi ilə mübarizəsi, həm güc strukturlarının istefasından sonra partiyadaxili mübahisələr, həm də erməni kilsəsi daxilində gedən parçalanma fonunda baş nazir cəmiyyəti xarici düşmənlə mübarizəyə səfərbər etmək məqsədi ilə yeni müharibə arzusundadır. "İnqilab"a verilən kredit tükənib və beynəlxalq ictimaiyyət demokratikləşmə şüarı arxasında gizlənən və qonşu ölkənin ərazisinin ilhaqını elan edən Ermənistan rəhbərliyinin əsl niyyəti ilə bağlı yanılmamalıdır. "Post-danışıqlar dövrü" nə ilə nəticələnə bilər? Əsas məqsədi ATƏT-in Minsk qrupunun mandatına uyğun olaraq Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin statusunu müəyyən etmək olan danışıqlar artıq mahiyyətini itirir. Bu şərtlər altında problemin digər yolları barədə düşünməyə ehtiyac yaranır.

2016-cı ilin aprel hadisələri Azərbaycanın artan hərbi potensialını nümayiş etdirdi, bununla yanaşı onun genişlənən iqtisadi potensialı və regional və qlobal müstəvidə etibarlı və uzunmüddətli tərəfdaş statusunun möhkəmlənməsi fonunda dəyişməsi mümkün olan bir sıra geosiyasi manevrlərin olduğunu göstərdi.

Danışıqlarda aparılmasını mənasız hesab edən bir ölkə öz hərbi potensialını, iqtisadi gücünü, diplomatiya və elm sahəsi də daxil olmaqla insan resurslarını bundan sonra da gücləndirməyə davam edəcək. Ermənistanın dərinləşən təcridi fonunda Azərbaycanın təşəbbüsü ilə regional layihələrin coğrafiyasının genişlənməsi Yerevanın öz xalqının gələcəyini düşünməyə və XX əsrin ortalarına xas olan milliyyətçi layihələrdən əl çəkməyə sövq etməli olan daha bir faktordur.

Bu layihələr keçmişdə öz yaradıcılarını məhv etdi və bu, gələcəkdə də belə olacaq.

# İki cahana sığmayıb, qəlblərdə əbədi yaşayan şair

## YAP Yasamal rayon təşkilatında İmadəddin Nəsiminin 650 illik yubileyi çərçivəsində tədbir keçirildi

**Prezident İlham Əliyevin "Böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyinin qeyd edilməsi haqqında", 2019-cu ilin "Nəsimi İli" elan edilməsi haqqında Sərəncamları göstərdi ki, xalqımızın çoxəsrlik ənənələrə malik bədii və fəlsəfi fikrində dərin iz qoymuş Nəsiminin zəngin irsi bu gün də insanların mənəvi, əxlaqi kamilləşməsində böyük əhəmiyyətə malikdir.**









Sərəncamlara uyğun olaraq respublikamızda keçirilən tədbirlərdə Nəsimi yaradıcılığı daha dərindən təhlil edilir, fəlsəfi düşüncələri, təfəkkürü, insanlara verdiyi dəyər haqqında ətraflı danışılır.

YAP Yasamal rayon təşkilatında keçirilən Nəsiminin yaradıcılığına həsr olunmuş ədəbi-bədii tədbirdə dünya irsi xəzinəsinə incilər bəxş edən Nəsiminin bədii yaradıcılığı, şeirlərinin ahəngi, kamil insan yetişdirmək istəyi haqqında danışıldı.

YAP Yasamal rayon təşkilatının sədri Tağı Əhmədov çıxışına Azərbaycan klassik ədəbiyyatında özünəməxsus yeri olan İmadəddin Nəsiminin 600 illik yubileyinin keçirilməsinin təşəbbüskarı olan ulu öndər Heydər Əliyevin sözləri ilə başladı: "İnsanların ürəyinə, qəlbinə təsir edə bilən ədəbiyyatımız olubdur, şeirimiz olubdur və həmin şeirlər, həmin sözlər doğrudan da xalqımızda, millətimizdə milli ruhu oyadıbdır, milli əhval-ruhiyyəni canlandırıbdır, milli dirçəliş prosesini gücləndiribdir. Məhz bunların nəticəsində bizdə milli psixologiya, milli ideologiya formalaşmağa başlayıbdır. Bəlkə bu milli psixologiya, milli ideologiya indi böyük bir sistem şəklində deyil, yəni bir sənəd, bir kitab, bir proqram yoxdur. Amma bu olmalıdır."

- Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə böyük söz ustadının 600 illiyinin UNESKO-nun görkəmli şəxsiyyətlərin və əlamətdar hadisələrin yubileyləri siyahısına daxil edildiyi və beynəlxalq miqyasda qeyd olunduğu həmin dövrdən etibarən Nəsimi ilə bağlı çox sayda araşdırmalar aparılmış, elmi əsərlər yazılmışdır. Prezident İlham Əliyevin Sərəncamı ilə 2019-cu ilin ölkəmizdə "Nəsimi ili" elan edilməsi də Azərbaycan xalqının ümumbəşər mədəniyyətinə verdiyi töhfələrə işıq salmaqla yanaşı, xalqımızın çoxəsrlik ənənələrə malik bədii və fəlsəfi fikrində dərin iz qoymuş mütəfəkkir şair İmadəddin Nəsiminin zəngin irsinin bu gün də insanların mənəvi-əxlaqi kamilləşməsində mühüm əhəmiyyətə malik olduğunu göstərir. Keçirilən hər tədbir ölkəmizdə nəsimişünaslığın inkişafına böyük təkan verməklə, Nəsimi yaradıcılığına Şərq aləmində də böyük marağın olduğunu göstərir. Nəsimi yaradıcılığının mübarizliyi, haqqı bütün varlığı ilə müdafiə etməsi örnək olaraq bütün xalqımıza, xüsusilə gənc nəslimizə öz müsbət təsirini göstərir. Nəsimi irsinə verilən dəyər ölkəmizdə yüksək ideallara, mənəvi həyata, mədəniyyətə, şeirə, sənətə, onların inkişafına nə qədər böyük diqqət yetirildiyinin təzahürüdür.

Tanınmış şair, filologiya elmləri doktoru, ədəbiyyatşünas alim, professor Vüqar Əhməd vurğuladı ki, İmadəddin Nəsiminin 650 illik yubileyinin qeyd edilməsi", həmçinin 2019-cu ilin "Nəsimi ili" elan edilməsi ilə bağlı Sərəncamlarda da bu reallıqlar öz əksini tapıb ki, şairin irsinin ölkəmizdə sistemli tədqiqi və təbliği Nəsimi irsinə verilən dəyərdir:

- Böyük söz ustadı Nəsiminin yaradıcılığı elə yüksək səviyyədədir ki, başqa türk xalqları da böyük ustadı öz adlarına çıxırlar. Azərbaycan və fars dillərində yazan Nəsiminin iki divanında toplanan şeirləri gözəlliyi, axıcılığı ilə fərqlənir. Sovet ideologiyasının qoyduğu məhdudiyyətlər və çərçivələr Nəsiminin Azərbaycan ədəbiyyatının, fəlsəfəsinin, mədəniyyətinin inkişafında oynadığı rolu vaxtında tam şəkildə geniş ictimaiyyətə çatdırmağa imkan vermirdi. Bu birtərəfli yanaşma isə Nəsiminin az qala ateist kimi təqdim edilməsinə şərait yaradırdı. Amma fakt odur ki, Nəsiminin bütün əsərlərində "Qurani-Kərim"ə və hədislərə istinadlar edilir. Şair fəlsəfi fikirlərini "Qurani-Kərim" əsasında yayırdı. Nəsimi insana böyük dəyər verir, onu ucaltmaqla bir növ gələcək təhlükələrdən qorumaq istəyirdi. Nəsimi fəlsəfəsinə görə, yalnız kamil insan Allahı dərk edə bilərdi. Buna görə də kamil insan Allahı dərk edərək ona qovuşacağına inanır, bütün sufilər kimi, Nəsimi də bu dünyanı fani, müvəqqəti hesab edirdi.

Vurğulandı ki, dərin dini-fəlsəfi biliyə malik olan görkəmli şair Nəsiminin ədəbiyyatımızın inkişafındakı ən böyük xidmətlərindən biri Azərbaycan dilində fəlsəfi qəzəlin banisi olmasıdır. Nəsiminin 650 illik yubileyinin qeyd olunması şairin fəlsəfəsini əks etdirən ideyalarını elmi cəhətdən əsaslandırmaq, həmçinin əsərlərini tədqiq etmək, dərin fəlsəfi məna tutumunu araşdırmaq və olduğu kimi Azərbaycan cəmiyyətinə, o cümlədən elmi ictimaiyyətə çatdırmaq, onu dünyaya tanıtdırmaq üçün bir fürsətdir. Çünki xalqımızın ən böyük söz ustadlarından olan Nəsimi ana dilimizi yüksək zirvələrə qaldırıb. Yubiley ilində Nəsimi yaradıcılığına həsr olunan 11 monoqrafiyanın hazırlanması şairin yaradıcılığının xalqımıza təqdimatıdır.

Filologiya üzrə fəlsəfə doktoru Qürbət Mirzəzadə bildirdi ki, poetik dilimizin banisi İmadəddin Nəsiminin irsinə bu qədər böyük diqqət və qayğı xalqımızın mədəni həyatında çox əlamətdar və təqdirəlayiq hadisədir:

- Nəsimiyə həsr olunmuş tədbirlərdə qeyd olunduğu kimi, Nəsimi fəlsəfəsini tam qavramaq üçün bir sıra elmlərə istinad etmək, onun yaradıcılığını müqayisəli şəkildə şərh etmək lazımdır. Alim zəhmətinin bəhrəsi olan bütün tədqiqatlar Nəsimi fəlsəfəsinin ucalığını bildirən gərəkli araşdırmalardır.

Tədbirin bədii hissəsində ali məktəb tələbələri şairin ən çox sevilən şeirlərini söylədilər. Azər Ələkbərov adına Respublika İncəsənət Gimnaziyasının tələbələri Nəsiminin həyatını əks etdirən səhnəcik göstərdilər.

**Xuraman İsmayılqızı,**
**Vüsal Cahanov, (foto)**
***"İki sahil"***

# *Sevinc Fətəliyeva:* Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizi Azərbaycana böyük iqtisadi və siyasi dividentlər qazandıracaq



"Azərbaycan Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizi infrastrukturunu davamlı surətdə təkmilləşdirir. Bunu son bir neçə il ərzində dəhlizin reallaşması istiqamətində görülən mühüm işlər təsdiqləyir. Bu nəqliyyat dəhlizi bütün Avrasiya regionu üçün yeni imkanlar açacaq". Bu fikirləri Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini, YAP-ın Beynəlxalq əlaqələr şöbəsinin müdiri Sevinc Fətəliyeva deyib.

S.Fətəliyeva bildirib ki, bu layihə Hindistandan gələn yüklərin gəmi vasitəsilə Süveyş kanalından keçib, Ümid burnunu dolanaraq İranın Bəndər Abbas limanına çatdırılmasını, buradan da onların dəmir yolu vasitəsilə Azərbaycan ərazisindən keçməklə Rusiya və digər ölkələrə ötürülməsini nəzərdə tutur. Azərbaycan bu layihədə fəal iştirak edərək onu milli maraqların təmin edilməsi baxımından əlverişli hesab edir.

"Bu nəqliyyat dəhlizinin fəliyyəti nəticəsində Avrasiya məkanında ölkələrin bir-biri ilə qarşılıqlı əlaqələri genişlənəcək. Layihə qonşu ölkələrin iqtisadi, siyasi sahədə əməkdaşlığını gücləndirəcək və onları dəmir halqalar kimi bir-birinə bağlayacaq. Belə ki, nəqliyyat dəhlizinin istifadəyə verilməsi möhkəm sistem yaradaraq Avrasiya ölkələrinin qarşılıqlı əlaqələrinin genişlənməsində mühüm rol oynayacaq. Bunun nəticəsində Azərbaycanın Fars körfəzinə, Oman dənizinə, Hind okeanına, Afrika ölkələrinə çıxışı asanlaşacaq, Rusiya və Mərkəzi Avropa ilə əməkdaşlıq imkanları xeyli artacaq. Azərbaycan tranzit ölkə kimi böyük iqtisadi səmərə ilə yanaşı, həm də böyük siyasi dividentlər əldə edəcək. Ölkəmiz regionda aparıcı mövqeyini daha da möhkəmləndirəcək"-deyə, S.Fətəliyeva vurğulayıb.

# Gənclərin sosial şəbəkələrdə fəallığının artırılması günümüzün əsas çağırışlarındandır



**Dünən YAP Xətai rayon təşkilatı Gənclər Birliyinin Şura iclası keçirildi. İclasda Gənclər Birliyinin fəaliyyət planı və gənclərin sosial şəbəkələrdə fəallığının artırılması ilə bağlı bir sıra məsələlər müzakirə olundu.**

Tədbiri giriş sözü ilə açan YAP Xətai rayon təşkilatının sədri, Milli Məclisin deputatı Hüseynbala Mirələmov dövlətin gənclər siyasətindən geniş bəhs etdi. Bildirdi ki, gənclər ölkəsi olan Azərbaycanda əhalinin bu təbəqəsinin potensial imkanlarından səmərəli istifadə etmək üçün biri-birindən əhəmiyyətli addımlar atılır, Dövlət proqramları təsdiqlənir. Ölkənin ictimai-siyasi həyatında aparıcı rol oynayan Yeni Azərbaycan Partiyasında birləşən 750 minə yaxın üzvün böyük əksəriyyətini gənclərin təşkil etməsi də təşkilatda onlara siyasi fəallıqlarını artırmaq, gənc siyasətçi kimi yetişmək, ən əsası cəmiyyətin avanqard qüvvəsi kimi ölkənin tərəqqisində fəal iştiraklarını təmin etmək üçün hər cür dəstək və qayğının movcudluğundan irəli gəlir.

H.Mirələmov bildirdi ki, bu günümüzün əsas çağırışlarından biri Azərbaycan gəncliyinin milli ruhda tərbiyə olunması, vətəndaşlıq təəssübkeşliyindən çıxış edərək dövlət maraqlarımızı yüksək səviyyədə qorumaq, ölkəmizə qarşı qərəzli kampaniya aparan anti-Azərbaycan qüvvələrə qarşı sərt mövqe ortaya qoymaq, internetin imkanlarından bəhrələnərək Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasına öz töhfələrini verməkdir.

Milli Məclisin deputatı onu da bildirdi ki, dövlətimizin başçısı İlham Əliyev dövlət orqanlarında, parlamentdə, bələdiyyələrdə, biznes strukturlarında gənclərin təmsil olunmasını qarşıya mühüm vəzifə kimi qoyub. Ölkə Prezidentinin bu tapşırığına uyğun olaraq Yeni Azərbaycan Partiyası ötən parlament və bələdiyyə seçkilərində gənclərin təmsilçilik faizinin artırılması istiqamətində mühüm addımlar atmışdır və nəticə göz qabağındadır. Bütün bu uğurlu addımlar gənclərin siyasi fəallığının artırılmasına böyük zəmin yaradır.

H.Mirələmov ölkə Prezidenti İlham Əliyevin bu fikirlərini bir daha gənclərimizin diqqətinə çatdırdı: "Gənclərimizin əksəriyyəti böyük qürur hissi ilə deyə bilərlər ki, onlar artıq müstəqillik illərində formalaşmış nəslə mənsubdurlar. Azərbaycançılıq məfkurəsi ruhunda tərbiyə almış bu nəsil dövlətimizin iqtisadi və mədəni inkişafında mühüm rol oynayaraq ildən-ilə potensialının gerçəkləşdirilməsi üçün daha geniş imkanlar əldə edir."

O da qeyd edildi ki, informasiya cəmiyyətinin bərqərar olması ilə əlaqəli proseslər sübut edir ki, müasirlik, yüksək keyfiyyətli təhsil və işgüzarlıq olan yerdə gəncliyə xas yenilikçi düşüncə sivilizasiyanın bütövlükdə simasını dəyişdirə bilər. Hazırda müasir dünyada qarşılaşdığımız bir çox problemlərin həlli məhz gəncliyin tükənməz enerjisi və qətiyyəti sayəsində həllini tapacaq.

YAP Xətai rayon təşkilatının Aparat rəhbəri Mayıl Kərimov dövlətimizin uğurlu siyasəti nəticəsində Azərbaycanın günbəgün qüdrətlənməsindən, güclənməsindən bəhs etdi. Bildirdi ki, hər bir Azərbaycan vətəndaşının əsas vəzifəsi bu uğurlara dəstək olmaq, dövlətimizin başçısı İlham Əliyevin ətrafında sıx birləşərək yeni-yeni hədəflərin gerçəkləşməsinə öz töhfəsini verməkdir.

YAP Xətai rayon təşkilatı Gənclər Birliyinin sədri Orxan Bayramov dövlətimizin gənclərə diqqət və qayğısından geniş bəhs etdi. Bildirdi ki, ulu öndər Heydər Əliyevin əsasını qoyduğu uğurlu gənclər siyasəti bu gün dövlətimizin başçısı İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkəmizin aparıcı siyasi təşkilatı olan Yeni Azərbaycan Partiyası gənclərin ictimai-siyasi fəallığının artırılması, asudə vaxtlarının səmərəli təşkili, beynəlxalq əlaqələrinin genişlənməsi, ümumiyyətlə, ayrı-ayrı sahələr üzrə layihələrin həyata keçirilməsinə xüsusi diqqət yetirir. Bu layihələr sırasında 2007-ci ildən başlayaraq hər il keçirilən yay və qış liderlik məktəblərini xüsusi qeyd etmək istərdik. Bu layihələrin əsas məqsədi ümumilikdə bölgə gənclərinin də ictimai-siyasi fəallığını artırmaq, onlar arasında sıx birlik yaratmaqdır.

YAP Xətai rayon təşkilatı Gənclər Birliyinin sədr müavini İnal Heydərli, Gənclər Birliyinin İdarə Heyətinin üzvləri Aliyə Orucova, Xəyyat Əsgərov, Yeganə Məmmədova və başqaları çıxış edərək gənclərin sosial şəbəkələrdə fəallığından geniş bəhs etdilər. Bildirdilər ki, gənclərimizin hər sahədə uğurları diqqətçəkəndir. Beynəlxalq yarışlarda Azərbaycanın bayrağını yüksəklərə qaldıran gənclərimiz bu uğurları ilə Azərbaycan kimi qüdrətli, zəngin ölkənin vətəndaşı olmaqdan qürur duyduqlarını, birliyimizin, həmrəyliyimizin sarsılmazlığını nümayiş etdirirlər. Göstərilən etimadı qiymətləndirmək, etimada sədaqətlə xidmət etmək gərəkdir. Bunun üçün qüdrətli, zəngin Azərbaycanımızın həqiqətlərini, ən əsası Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin əsl mahiyyətini, ölkəmizə qarşı qərəzli mövqedə dayanan dairələrin əsassız təbliğatlarını real faktlarla, tarixi həqiqətlərlə cavablandırmalıyıq.

**Yeganə Əliyeva,**
***"İki sahil"***

# YAP rayon təşkilatlarında seminar-müşavirə

## ŞƏMKİR RAYONU



Yeni Azərbaycan Partiyası (YAP) Şəmkir rayon təşkilatında ərazi ilk partiya təşkilat sədrlərinin iştirakı ilə seminar-müşavirə keçirilib.

Tədbirdə YAP Şəmkir rayon təşkilatının sədri Fəxrəddin Vəliyev çıxış edərək cari ilin dekabr ayında ölkəmizdə növbəti bələdiyyə seçkilərinin keçiriləcəyini, partiyanın bu siyasi kampaniyaya ciddi hazırlaşdığını söylədi. O, YAP Şəmkir rayon təşkilatının inzibati binasında seçki qərargahının yaradıldığını və bu işlərdə ilk partiya təşkilatlarının səfərbər olunmasının vacibliyini qeyd edib. Bildirib ki, seçki məntəqələrində məşvərətçi və müşahidəçilərin seçilməsi istiqamətində işlərə başlanılıb və namizədlərin müəyyən olunmasında partiya sıralarında xüsusi fəallıq göstərən gənclərə və qadınlara üstünlük veriləcək.

F.Vəliyev bildirib ki, cari ildə Prezident İlham Əliyevin müvafiq Fərman və sərəncamları ilə ölkəmizdə əməkhaqları, təqaüdlər, sosial müavinətlər və digər sosial ödənişlər əhəmiyyətli dərəcədə artırılıb: "Qayğıya ehtiyacı olan insanlara dövlətimiz lazımi diqqət göstərir. Hər bir ailə bu artımlardan faydalanır. Azərbaycan dövləti gücləndikcə, əhalinin rifah halının daha da yüksəldilməsi istiqamətində növbəti addımlar atılacaqdır. Uğurların qazanılmasının əsasında dayanan amillərdən biri də sabitlikdir. Çünki sabitlik olmadan heç bir inkişaf və əmin-amanlıqdan söhbət gedə bilməz. Ona görə də hər bir dövlət və xalq üçün sabitlik ən mühüm şərtlərdən biridir".

Rayon təşkilatının sədri qeyd edib ki, Azərbaycanın inkişafını və güclənməsini istəməyən qüvvələr çoxdur: "Həmin dairələr müxtəlif vasitələrlə ölkəmizə qarşı qaraxarma kampaniyası aparırlar. Bu vasitələrdən biri də sosial şəbəkələrdir. Belə kampaniya aparanlar cəmiyyətimizdə ifşa olunmalıdırlar. Ona görə də partiyamızın üzvləri Azərbaycanın qazandığı nailiyyətləri insanlar arasında geniş təbliğ etmək işini daha fəal şəkildə davam etdirməlidirlər. O cümlədən ölkəmizə qarşı qarayaxma kampaniyası aparan dairələrin, radikal müxalifətin əsl niyyətləri ifşa olunmalıdır. Bu işdə də ərazi ilk partiya təşkilatlarının üzərinə böyük məsuliyyət düşür".

Sonda YAP Şəmkir rayon təşkilatının sədri Fəxrəddin Vəliyev partiya həyatı ilə bağlı müvafiq tövsiyə və tapşırıqlarını verib.

**Cavid Əkbərov,**
***"İki sahil"***

## TOVUZ RAYONU



Bu gün YAP Tovuz rayon təşkilatında ərazi ilk partiya təşkilat sədrlərinin iştirakı ilə seminar-müşavirə keçirilib. Müşavirədə 2019-cu ilin dekabr ayında keçiriləcək bələdiyyə seçkilərinə hazırlıq məsələləri müzakirə olunub. Tədbirdə çıxış edən rayon təşkilatının sədri Məzahir Bayramov 7 sentyabr 2019-cu il tarixdə Yeni Azərbaycan Partiyasının rayon və şəhər təşkilatlarının sədrləri ilə keçirilmiş respublika müşavirəsində partiyanın Sədr müavini-İcra katibi Əli Əhmədovun çıxışında qarşıya qoyulmuş məsələləri müşavirə iştirakçılarının diqqətinə çatdırıb.

Qeyd edib ki, həmişə olduğu kimi partiyamız qarşıdakı seçki kampaniyasına da ciddi hazırlaşır. İlk partiya təşkilatlarımız öz fəaliyyətlərini daha da gücləndirməli, bələdiyyə seçkilərində partiyamızın qələbəsini təmin etmək üçün səfərbər olunmalıdırlar. İlk partiya təşkilatları bələdiyyələrdə təmsil olunan YAP üzvlərinin fəaliyyətini öyrənərək, gələcək namizədlərin müəyyənləşdirilməsində nəzərə almalıdırlar. Biz iş təcrübəsinə, əhali arasında nüfuza, mənəvi keyfiyyətlərə malik olan, təhlil aparmağı, problem həll etməyi və qərar verməyi bacaran, ictimai həyatda fəallığı ilə seçilən insanların namizədliyini irəli sürməliyik. Bu sırada gənclərə və qadınlara üstünlük verilməlidir.

M.Bayramov sonra bələdiyyə seçkiləri ilə əlaqədar YAP mərkəzi seçki qərargahının rayon şöbəsinin yaradıldığını bildirib və ilk təşkilatlarla qərargahın qarşılıqlı fəaliyyəti məsələlərindən danışıb. O, eyni zamanda, seçki məntəqələrində fəaliyyət göstərəcək məşvərətçi səs hüquqlu üzvlərin və müşahidəçilərin müəyyən olunması istiqamətində işlərə başlanıldığını bildirib.

Müşavirədə bunlarla yanaşı, ölkəmizdə azad, demokratik seçkilərin keçirilməsi üçün hər cür şərait yaradıldığı, dayanıqlı ictimai-siyasi sabitliyin bərqərar olduğu xüsusi vurğulanıb. Eyni zamanda, o da qeyd olunub ki, ölkəmizin qazandığı böyük uğurları gözü götürməyən, dövlətimizin və xalqımızın mənafeyini etibarlı şəkildə müdafiə edən Prezident İlham Əliyevin iradəsinə təsir göstərə bilməyən xarici qüvvələr satqınlığa meyilli olan adamları və qrupları ələ alıb şirnikdirməklə, çirkin anti-Azərbaycan kampaniyasına rəvac veriblər. Sosial şəbəkələr vasitəsilə şərböhtan kampaniyası aparanların, ölkəmizdəki siyasi proseslərə qanunsuz müdaxilə edənlərin pozuculuq və təxribatçılıq məqsədlərinin ifşa olunmasında ilk partiya təşkilatlarının fəaliyyətlərinin daha da gücləndirilməsi və bu işdə hər bir partiya üzvünün iştirakı məqsədəuyğun hesab olunub.

**Nüsrət Məmmədov,**
***"İki sahil"***

# Hadi Rəcəbli: Azərbaycan-Çin əlaqələri dostluq və qarşılıqlı etimad üzərində qurulub

*"Qədim tarixə və zəngin mədəniyyətə malik olan Çin haqlı olaraq müasir sivilizasiyanın beşiklərindən biri sayılır. Əsrlər boyu çinlilər bəşəriyyətin inkişafına böyük töhfələr veriblər. İpəyi, Çin qablarını, barıtı, kağızı və digər faydalı məhsulları bəşəriyyətə bəxş edənlər məhz onlardır. Böyük Çin Səddi qədimdən bu ölkənin zamana tabe olmayan qiymətli simvolu hesab olunur və Yer üzündə kosmosdan müşahidə edilən yeganə abidədir. Tarixin bütün mərhələlərində dünyada öz yeri, mövqeyi olan ölkə kimi diqqəti cəlb edən Çinlə Azərbaycan arasında əlaqələrin yaranması coğrafi uzaqlığa baxmayaraq eramızdan əvvəllərə təsadüf edir. Qədim Azərbaycan dövlətləri beynəlxalq tranzit ticarəti yolunda yerləşdiyinə görə Tarixi İpək Yolu müəyyən əlaqələrin formalaşmasında əsas vasilə olmuşdur."*

**Bu fikirləri İkisahil.TV-yə açıqlamasında Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri, professor Hadi Rəcəbli bildirdi.**




H.Rəcəbli qeyd etdi ki, iqtisadi sahədə əldə etdiyi uğurlara, xarici və daxili siyasətdə nail olduğu davamlı inkişafa görə dünyanın diqqətini özünə cəlb etməyi bacaran və bu gün yaradılmasının 70-ci ili tamam olan Çin Xalq Respublikası ilə Azərbaycan arasında çağdaş dövrdə siyasi, iqtisadi, ticarət, enerji, mədəniyyət, kənd təsərrüfatı, turizm, təhsil kimi sahələrdə yüksək səviyyədə əməkdaşlıq əlaqələri formalaşıb. Müasir Azərbaycan-Çin münasibətlərinin tarixi 1991-ci ildən başlayır. Belə ki, Çin Xalq Respublikası Azərbaycanın dövlət müstəqilliyini ilk tanıyan dövlətlər sırasında yer alır. Bu ölkə Azərbaycanın müstəqilliyini 27 dekabr 1991-ci ildə tanımış, diplomatik münasibətlər isə 2 aprel 1992-ci ildə qurulmuşdur. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 1994-cü ilin martında Çinə rəsmi səfəri bugünkü münasibətlərin dayanıqlı təməlini qoymuşdur. Ulu öndər Heydər Əliyevin Çinə uğurlu səfərindən sonra iki ölkə arasında ikitərəfli münasibətlər daha da möhkəmlənmiş, əlaqələr sürətlə inkişaf mərhələsinə qədəm qoymuşdur. Səfər zamanı Azərbaycanla Çin arasında dostluq münasibətlərinin inkişaf etdirilməsinin əsasları haqqında birgə bəyanat, hava yolunun açılması haqqında, elmi-texniki və mədəni əməkdaşlıq, radio və televiziya, turizm sahəsində qarşılıqlı fəaliyyət haqqında sazişlər imzalanmışdır. Çindən qayıdarkən Almatıda jurnalistlərlə söhbətində Heydər Əliyev səfərin yekunlarını belə dəyərləndirib: "Çin Xalq Respublikasına səfərimiz böyük tarixi hadisədir. Çünki Çin ilə Azərbaycan arasında heç vaxt bu səviyyədə əlaqələr olmamışdır. Doğrudur, tarixən müəyyən əlaqələr, "Böyük İpək yolu" və s. olduğunu xatırlayırıq. İndi isə, təkrar edirəm, dövlətlərarası sıx münasibətlərin yaranması böyük siyasi hadisədir. İlk növbədə Azərbaycan Respublikası üçün böyük hadisədir".

Komitə sədri vurğuladı ki, Prezident İlham Əliyevin Azərbaycana rəhbərlik etdiyi ötən son 16 ildə Çinlə münasibətlər dinamik inkişaf etmiş, yeni əməkdaşlıq əlaqələri formalaşmışdır. Xüsusən cənab İlham Əliyevin Çinə 2005-ci ildə rəsmi, 2015-ci ildəki işgüzar səfərləri əlaqələrin inkişafına və canlandırılmasına mühüm töhfələr verib. Hər iki səfər ölkələrimiz arasında dostluq və tərəfdaşlıq münasibətlərinin formalaşmasında mühüm rol oynamış və Çin-Azərbaycan birgə bəyanatının qəbul edilməsi ilə nəticələnmişdir. Hökumət, parlament rəhbərləri, nazirlər və digər rəsmilər səviyyəsində də iki ölkə arasındakı qarşılıqlı səfərlər zəngin olmuşdur. Azərbaycan Prezidentinin bu ilin aprel ayında Çinə son səfəri zamanı bu ölkə ilə 820 milyon ABŞ dolları dəyərində daha 10 saziş imzalanmışdır. Bununla da indiyədək iki ölkə arasında imzalanmış hüquqi sənədlərin sayı 77-yə çatmışdır.

Hadi Rəcəbli diqqətə çatdırdı ki, coğrafi baxımdan biri-birindən uzaq məsafədə yerləşməsinə baxmayaraq, Azərbaycan və Çin dövlət başçılarının siyasi iradəsi və dostluq münasibətləri ölkələrimiz arasında qarşılıqlı əlaqələrin inkişafına hər zaman əlverişli zəmin yaratmışdır. Təsadüfi deyil ki, 1993-cü ildə ölkələrimiz arasında ticarət dövriyyəsinin həcmi 1,5 milyon ABŞ dolları təşkil etdiyi halda, 2018-ci ildə bu ölkə ilə ticarət dövriyyəsinin həcmi 1,3 milyard ABŞ dolları olmuşdur. Bu isə Çinin Cənubi Qafqaz ölkələri ilə olan ümumi ticarət dövriyyəsinin 43 faizini təşkil edir. Cari ilin 6 ayı ərzində isə bu göstərici 1,4 milyard ABŞ dolları təşkil etmişdir. Bütün bunlar onu göstərir ki, Azərbaycan Çinin Cənubi Qafqazda ən böyük ticarət tərəfdaşıdır.

"Azərbaycanda 120-dək Çin kapitallı şirkət qeydiyyata alınıb. Onlar sənaye və İKT layihələrinin reallaşdırılmasında iştirak edirlər. Son illərdə Azərbaycana səfər edən Çin turistlərinin sayında 53 faiz artım var. Çünki Azərbaycan Çin vətəndaşları üçün sadələşdirilmiş viza proseduru tətbiq edir"- deyə, komitə sədri bildirdi.

Komitə sədri qeyd etdi ki, 2013-cü ildə Çin Xalq Respublikasının Sədri Si Cinpin tərəfindən "Bir kəmər, bir yol" layihəsi irəli sürüldü ki, bu da tarixi İpək Yolunu yenidən canlandırmağa, həmçinin bu yolun keçdiyi ölkələr ilə əməkdaşlıq sahələrini artırmağa xidmət edir. Bu ilin yanvar ayında Davosda Dünya İqtisadi Forumu çərçivəsində "Bir kəmər, bir yol"" təşəbbüsünün inkişaf etdirilməsi: Çinin trilyon dollarlıq baxışı" mövzusunda keçirilən sessiyada Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Azərbaycanın Şərq-Qərb nəqliyyat dəhlizi təşəbbüsünün fəal üzvü olduğunu, ölkəmizin Çin hökumətinin "Bir kəmər, bir yol" təşəbbüsünü dəstəklədiyini bildirib. Cari ilin aprel ayında Pekində keçirilən 2-ci "Bir kəmər, bir yol" Beynəlxalq Əməkdaşlıq Forumuna isə Cənubi Qafqazdan yalnız Prezident İlham Əliyev dəvət almışdı. Forumdakı çıxışı zamanı möhtərəm Prezidentimiz ölkəmizin "Bir kəmər, bir yol" təşəbbüsünü dəstəklədiyini bəyan etdi: "Azərbaycan lap əvvəldən Çin Xalq Respublikasının Sədri Si Cinpin tərəfindən irəli sürülmüş "Bir kəmər, bir yol" təşəbbüsünü dəstəkləyib. Bu layihə təkcə nəqliyyat bağlılığını təmin etmir. O, həmçinin müxtəlif ölkələr arasında əlaqələri gücləndirir, dialoq və əməkdaşlığın möhkəmləndirilməsi işinə xidmət edir və beynəlxalq ticarət üçün yeni imkanlar yaradır".

Son olaraq Hadi Rəcəbli qeyd etdi ki, yüksək siyasi münasibətləri iki ölkənin hakim partiyaları - Yeni Azərbaycan Partiyası və Çin Kommunist Partiyası arasında fəal əməkdaşlığın formalaşmasına münbit şərait yaradıb. Əlaqələrimizin 20 illiyi və ÇXR-in yaranmasının 70 illiyi münasibətilə mənim rəhbərliyimlə YAP nümayəndə heyəti sentyabrın 11-dən 16-dək Çində səfərdə oldu. İşgüzar səfər çərçivəsində keçirilən görüşlər, konfranslar Azərbaycan ilə Çin, eləcə də YAP ilə ÇKP arasında əlaqələrin yüksək səviyyədə olmasını bir daha təsdiq etdi.

**Şəmsiyyə Əliqızı,**
**Könül Əliyeva,**
***"İki sahil"***

# Deputat: Dövlətimizin sərgilədiyi mövqe Ermənistan rəhbərliyini ciddi şəkildə düşündürməlidir



Məlum olduğu kimi, bu günlərdə Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarovla ATƏT-in Minsk qrupunun həmsədrləri arasında baş tutan görüşdə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə aparılan danışıqlar, eləcə də münaqişə zonasındakı vəziyyət və ümumilikdə, münaqişənin tənzimlənməsinə dair həmsədrlərin gələcək fəaliyyət planları və perspektivləri müzakirə mövzusu olub. Bunun ardınca sentyabrın 23-də Nyu-Yorkda İslam Əməkdaşlıq Təşkilatının (İƏT) Ermənistanın Azərbaycana qarşı təcavüzü üzrə Kontakt Qrupunun dördüncü iclası keçirilib. Xarici İşlər naziri Elmar Məmmədyarov iclasda çıxış edib.

Milli Məclisin deputatı Aydın Mirzəzadə məsələ ilə bağlı qəzetimizə açıqlamsında bildirdi ki, Azərbaycan işğalçı Ermənistana etdiyi təzyiqlərin bütün formalarını gücləndirməlidir: "Bu istiqamətdə iş gedir. Bununla da işğalçı dövlət Azərbaycanın təşəbbüskarı olduğu regional iqtisadi layihələrdən kənarda qalıb. Ölkəmiz Ermənistanı dəstəkləyən müəyyən dairələrin təzyiqinə baxmayaraq, bu ölkə ilə iqtisadi əlaqələr qurmağın qeyri-mümkünlüyünü bəyan edib. Ermənistanla aparılan danışıqlarda Azərbaycan ərazi bütövlüyü prinsipindən heç bir halda geri çəkilməyəcəyini dəfələrlə dilə gətirib. Göründüyü kimi, bugünkü vəziyyət Azərbaycandan daha çox Ermənistana ciddi təsir göstərib. Keçən il bu ölkədə baş verən hakimiyyət dəyişikliyinin səbəbi də Azərbaycan torpaqlarının işğalından doğan fəsadlar idi. Elə indinin özündə də Ermənistanın baş naziri götürdüyü öhdəlikləri yerinə yetirə bilmədiyinə görə cəmiyyət tərəfindən ciddi tənqidlərə məruz qalır. Düşünürəm ki, Azərbaycan hərbi gücünü artırmaqla cəbhə və sərhəd xəttində öz mövqeyini sərt şəkildə Ermənistana göstərməklə, bu ölkənin bütün məsələlərdə Azərbaycandan çox geri qaldığını bir daha hiss etdirdi. Azərbaycanın sərgilədiyi mövqe Ermənistan rəhbərliyini ciddi şəkildə düşündürməlidir".

Deputat onu da qeyd etdi ki, cəbhədəki vəziyyət göz önündədir. Hər dəfə qarşı tərəf atəşkəsi pozaraq münaqişənin danışıqlar yolu ilə həll olunma ehtimalını sıfıra endirir: "Görünür, Ermənistan sülh istəmir. Mümkün qədər çox vaxt udub zaman qazanmaqla prosesləri öz xeyirlərinə dəyişməyə ümid edirlər. Onu da qeyd edək ki, status-kvonun dəyişməsi qətiyyən Ermənistanın xeyrinə deyil. İşğalçı dövlət vaxt udaraq dünya ictimaiyyətini, beynəlxalq təşkilatları fakt qarşısında qoymaq istəyir. Ermənistan sübut etmək istəyir ki, Dağlıq Qarabağ erməniləri "müstəqil dövlət" kimi yaşamaq, mövcudluq qabiliyyətinə malikdirlər və dünya ictimaiyyəti bunu nəzərə alaraq onların "müstəqilliyini" tanımalıdır. Lakin onların bu cür yalan bəyanatlarını dünya birliyi yaxşı görür və bilir. Onu da qeyd edim ki, gec və ya tez bir zamanda Azərbaycan hansı yolla olursa olsun - sülh, ya da müharibə yolu ilə öz torpaqlarını düşmən tapdağından azad edəcək.

"Son görüşlə bağlı erməni KİV-nin böhtan xarakterli məlumatlar tirajladığını da gördük. Hətta qeyd etdilər ki, guya danışıqlarda erməni nazir öz əvvəlki mövqelərini nəzərə çatdırmaqdan başqa hansısa addım atmayıb. Bununla demək istəyirlər ki, onlar indiki status-kvodan bir addım da olsun kənara çəkilmək istəmirlər. Azərbaycanın bu məsələdə rəsmi mövqeyi bəllidir. Biz deyirik ki, münaqişə yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapa bilər. Ermənilər bununla qəti razı deyillərsə, deməli, bir yol qalır, o da müharibədir. Ondan sonra görək Paşinyan daxili auditoriyanı sakitləşdirmək üçün hansı yalanları uyduracaq? Müharibənin nəticələri heç vaxt daimi ola bilməz, o yalnız müvəqqəti xarakter daşıyır", - deyə A.Mirzəzadə bildirdi.

**Mənsumə Babayeva,**
***"İki sahil"***